AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

7 FEVRAL 2025-ci il CÜMƏ № 27 (8075) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



# Azərbaycanın yeni dövrü: Zəfərdən yüksəlişə

*Azərbaycan xalqı ötən il 7 fevral prezident seçkilərində tarixi seçim etdi. Prezidentliyə namizəd İlham Əliyev 92,12 faiz səslə inamlı qələbə qazandı. Xalqımız bir daha öz Liderinə etimad göstərdi, Azərbaycanın gələcəyini yalnız ona etibar etdiyini açıq şəkildə ifadə etdi. Bu seçki sadəcə bir siyasi proses deyil, milli iradənin, xalqın birlik və gücünün təzahürü oldu. 7 fevral seçkiləri həm də suverenliyimizin göstəricisi idi. Məhz Prezident İlham Əliyevin öz ailəsi ilə birlikdə Xankəndidə səs verməsi bu seçkinin əsas rəmzi məqamlarından biri oldu. Xankəndidə ilk dəfə Azərbaycan bayrağı altında keçirilən seçkilər Qarabağın əbədi olaraq öz sahiblərinə qovuşduğunu dünyaya bir daha nümayiş etdirdi. Bu seçkilər təkcə bir dövrün deyil, bütöv bir tarixin başlanğıcı oldu. Azərbaycan xalqı Zəfər Seçkisi ilə öz Liderinə, dövlətçiliyinə və gələcəyinə sarsılmaz inamını bir daha təsdiqlədi.*

Seçkiləri yaxından izləyən 216 aparıcı media nümayəndəsi və 90 mindən artıq müşahidəçi yekdilliklə bildirdi ki, Azərbaycanda keçirilən seçki demokratik prinsiplərə tam cavab verən, şəffaf və mütəşəkkil bir siyasi proses oldu. Üstəlik, 72 beynəlxalq təşkilat və 89 ölkədən gələn 790 beynəlxalq müşahidəçi də seçkilərin tam legitim keçdiyini, nəticəyə təsir edə biləcək hər hansı ciddi qanun pozuntusunun qeydə alınmadığını bəyan etdi. Hətta bir sıra beynəlxalq müşahidəçilər etiraf ediblər ki, inkişaf etmiş ölkələrdə belə yüksək səviyyədə təşkil olunmuş seçkilərə nadir hallarda rast gəlinir. Bu, Azərbaycanın demokratik dəyərlərə sadiqliyinin və seçki keçirmə təcrübəsinin bariz sübutudur.

Müstəqil Azərbaycan artıq 22 ildir ki, xalqın müdrik seçimindən doğan uğurların xoşbəxtliyini yaşayır. Azərbaycanın bu zirvəyə yüksəlməsinin əsas səbəbi bəllidir - tarixi Zəfərimiz, güclü iqtisadiyyatımız, beynəlxalq nüfuzumuz. Bütün bunlar məhz Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir.

**(davamı 2-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Ulu öndər Heydər Əliyevin alternativsiz siyasi kursunu zərgər dəqiqliyi ilə davam etdirən cənab İlham Əliyev ötən dövr ərzində Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi. Xalqımız bunu çox yaxşı bilir və ona görə də illərdir liderinə sarsılmaz inam nümayiş etdirir. 2018-ci ilin 11 aprelində keçirilən prezident seçkilərində də vətəndaşlarımız İlham Əliyevə qəti etimad göstərərək onu əvəzolunmaz lider kimi qəbul etdilər. Bugünkü inkişafımız və tarixi qələbələrimiz bu seçimin nə qədər düzgün olduğunu bir daha sübut etdi.

Prezident İlham Əliyev Azərbaycanın daxili inkişafını təmin etdi, həm də ölkəmizi regional və beynəlxalq siyasətdə mühüm aktora çevirdi. Onun həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan dünya arenasında öz sözünü deyən, proseslərə təsir göstərə bilən güclü dövlət oldu. Xalq isə bu kursu tam dəstəklədi.

Uzun illər Qarabağın işğal altında qalması xalqımıza ürəkdən sevinməyi unutdurmuşdu. Lakin 2020-ci ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun bölmələri tarixi ədaləti bərpa etdi. İşğal altındakı torpaqlarımız azad olundu, Qarabağ və Şərqi Zəngəzurda üçrəngli bayrağımız dalğalandı. Azərbaycan xalqı artıq Qalib xalq oldu. Prezident İlham Əliyev bizə yalnız torpaqlarımızı deyil, həm də itirilmiş qürurumuzu, milli iradəmizi və qələbə ruhumuzu qaytardı. Liderin apardığı siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət edir. Bu gün Azərbaycan dünyada tolerantlıq, mədəniyyətlərarası dialoq və sivilizasiyalararası əməkdaşlıq məkanı kimi tanınır.

Azərbaycan haradan haraya gəlib çıxdı, hansı zirvələri fəth etdi - hamısını öz gözlərimizlə gördük. Bu illər ölkəmizin dinamik inkişafı, xalqımızın rifahının davamlı yüksəlməsi və bütün sahələrdə köklü islahatlarla yadda qaldı. Prezident İlham Əliyevin rəhbərliyi Azərbaycan tarixində yüksəliş dövrü kimi əbədi qalacaq. Bu illər ərzində dövlət başçısı verdiyi hər bir vədi yerinə yetirdi, Azərbaycanı iqtisadi, siyasi və hərbi baxımdan regionun güc mərkəzinə çevirdi. Ancaq bu dövrün zirvəsində bir tarix dayanır - Qarabağın və Şərqi Zəngəzurun azad olunması! Vətən müharibəsində qazanılan tarixi Zəfər xalqımızın qəhrəmanlıq salnaməsinə əbədi həkk olundu. 44 gün ərzində Azərbaycan Ordusunun bölmələri işğal altındakı torpaqları azad etdi, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini özü icra etdi. Bu qələbə təkcə döyüş meydanında deyil, diplomatiya cəbhəsində də əldə olundu. Müharibə zamanı Prezident İlham Əliyevin xarici mediaya verdiyi 30-a yaxın müsahibə həqiqətlərimizi dünyaya çatdırdı, Azərbaycanın haqq səsini beynəlxalq ictimaiyyətin gündəminə çıxardı. 2023-cü il sentyabrın 19-da Ordumuzun həyata keçirdiyi lokal antiterror tədbirləri ilə Qarabağda separatizmə son qoyuldu. Cəmi 24 saat ərzində qarşıya qoyulan bütün hədəflər gerçəkləşdi. Bu, Prezident İlham Əliyevin qətiyyətinin, siyasi iradəsinin və strateji düşüncəsinin parlaq təzahürü idi. Azərbaycan xalqı bir daha öz Liderinin ətrafında "dəmir yumruq" kimi birləşərək gücünü və qələbə əzmini dünyaya nümayiş etdirdi.

Prezident İlham Əliyevin dərin biliyi, strateji baxışı və çevik diplomatik gedişləri Azərbaycanın xarici siyasətində mühüm uğurların qazanılmasını təmin edir. Cənab Prezident beynəlxalq arenada ölkəmizin maraqlarını qətiyyətlə qoruyur, güclü lider kimi Azərbaycanı qlobal siyasətin fəal oyunçusuna çevirir. Dövlət başçısının xarici siyasət strategiyasının əsas prinsipləri aydındır: ölkələrin suverenliyinə hörmət, qarşılıqlı faydalı əməkdaşlıq və milli maraqlara əsaslanan güclü əlaqələr. Məhz bu prinsipial mövqe Azərbaycanın beynəlxalq nüfuzunu artırır, onu etibarlı tərəfdaş və strateji müttəfiq kimi dünya siyasətində ön plana çıxarır. Belə ki, son illər Azərbaycanın beynəlxalq təşkilatlarla qurduğu səmərəli əməkdaşlıq əlaqələri ölkəmizin dünya miqyasında nüfuzunu daha da möhkəmləndirib. Azərbaycanın qlobal arenadakı uğurları bir-birini tamamlayaraq, dövlətimizin beynəlxalq mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib. 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına uğurla rəhbərlik etməsi və nəhayət, COP29 kimi nəhəng beynəlxalq tədbirə ev sahibliyi etməsi Azərbaycanın dünya siyasətində etibarlı tərəfdaş və güclü aktor olduğunu bir daha sübut etdi. COP29 çərçivəsində Azərbaycan qlobal iqlim gündəliyinə mühüm töhfələr verməklə, iqlim dəyişmələri ilə bağlı qlobal qərarların qəbuluna şərait yaratdı və bu sahədə liderliyini bir daha təsdiqlədi. Bu uğurlar Azərbaycanın beynəlxalq nüfuzunun zirvəyə yüksəldiyini və ölkəmizin qlobal problemlərin həllində mühüm söz sahibi olduğunu göstərir.

Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan üçün yeni bir mərhələ başlayır - quruculuq, inkişaf və azad edilmiş torpaqların dirçəliş dövrü. Bu, yalnız şəhər və kəndlərimizin bərpası deyil, həm də milli ruhun, qələbə əzminin daha da güclənməsi deməkdir. Azərbaycan xalqı bu yeni çağırışa da birlik və iradə ilə cavab verəcək, işğaldan azad edilmiş torpaqlarımızı canlandırmaq üçün bütün gücünü səfərbər edəcək. Biz indi qalib və qürurlu xalqıq - bu statusu qoruyaraq daha böyük uğurlara imza atmaq əzmindəyik.

**Nurlan ABDALOV,**
**"Respublika".**